# Qadınlarımızın üzlərindən təbəssüm əskik olmasın

**8 Mart Beynəlxalq Qadınlar Günü! İllərdir bütün dünya bu günü təntənə ilə, sevinclə, fərəhlə qeyd edir. Bu bayram, bu təmtəraq, bu diqqət, bu sevgi qadınlara olan hörmətin ən gözəl nümunəsidir. Bu gözəl bayramı qeyd edə-edə özümüzə suallar veririk: kimdir qadın? Bu suala cavab verərək deyirik ki, qadın anamızdır, bacımızdır, qadın ən yaxın dostumuz və sirdaşımızdır. Qadın dünyamızın, ömrümüzün, həyatımızın, cəmiyyətimizin yaraşığı, vuran ürəyi, gücü, aparıcı qüvvəsidir.**



Qadınlar böyük qüdrətə sahib olan ilahi varlıqlardır. Yüz illərdir ki, onlar sirli-sehrli aləmləri ilə, əsrarəngizlikləri, özünəməxsusluqları, gözəllikləri, bacarıqları, igidlikləri, cəsarətləri ilə dünyamızı işığa, nura boyayırlar. Ağılları, zəkaları, fitri istedadları, hünərləri ilə Yer üzünü qoruyurlar. Dünyaya övlad gətirirlər, onları böyüdürlər, tərbiyə edirlər, ev-eşik qururlar. Elə buna görə də "Dədə Qorqud" dastanında qadın kişinin "başının baxtı, evinin taxtı" kimi dəyərləndirilib.

Təbiətin zərif varlıqları olan qadınlar bu gün cəmiyyətimizin müxtəlif sahələrində çalışırlar. Həkim, müəllim, şair, rəssam, əczaçı, xalçaçı, bankçı, kitabxanaçı, iqtisadçı və sairə. Hər gün onların uğurlarını eşidirik. Həyatımızın hər anında, hər yerində qadınları görürük. Onların varlığına, yaşamına şükürlər edirik.

Müqəddəs varlıq olan qadın sirli-sehrli bir aləmdir, mənalarla dolu bir dünyadır. Bizi daim sehrində saxlayan qadınlar rəssamların çəkdiyi əsərlərdə, şairlərin yazdığı şeirlərdə, bəstəkarların bəstələdiyi nəğmələrdə, heykəltaraşların düzəltdiyi heykəllərdə, xalçaçıların toxuduğu xalçalarda, rejissorların çəkdiyi filmlərdə böyük zövqlə tərənnüm olunurlar. Qadınların sirlərlə dolu dünyasında nələr yoxdur? Sevgi, məhəbbət, istək, şirin xəyallar, yüksək diqqət, tükənməz qayğı, insanları heyrətləndirən nəvaziş.

Qadın xoşbəxtliyə gedən yollarda kişilərin ən etibarlı, ən sadiq, ən inamlı yol yoldaşıdır, can sirdaşıdır. Hər şeydən vacib və uca olan odur ki, qadın adı böyük hərflərlə yazılan Anadır. Bütün dünya, bütün bəşəriyyət analar qarşısında baş əyir, diz çökür, ona qibtə edir. Yer üzündə elə bir müqəddəs varlıq yoxdur ki, anadan əziz və dəyərli olsun. Ulu Öndər Heydər Əliyev həmişə qadınlara arxalandığını, onları özünün dayağı hesab etdiyini iftixarla vurğulayaraq deyirdi: "Qadın dünyadır, qadın həyatdır, insanlığı yaşadan müqəddəs varlıqdır".

Qadınları bir-birinə oxşamayan, rəngarəng güllərə, çiçəklərə də bənzədirlər. Elə buna görə də onlara güllərin, çiçəklərin adlarını qoyurlar. Tez-tez bu adları eşidirik: Bənövşə, Qərənfil, Qızılgül, Gülnarə, Nərgiz, Reyhan, Çiçək... Bu adları eşidəndə gözlərimiz qarşısında elə qadınlarımız kimi gözəl çiçəklər canlanır. Qadınlarımız da elə bu çiçəklər, güllər kimi gözəldirlər, bənzərsizdirlər.

Bəlkə də şablon səslənəcək, amma deməliyik ki, sadəlik həqiqətən də gözəllikdir! Gözəllik də elə sadəlikdən doğur. Gözəlliklə sadəlik ayrı-ayrı zamanlarda doğulsalar da, qadınların ürəyində, qəlbində birləşib doğmalaşıblar. Ona görə də qadınlarımız bu qədər gözəl, cazibədar görünürlər. Bir zamanlar Dostoyevski böyük uzaqgörənliklə "Gözəllik dünyanı xilas edəcək" yazmışdı. Kim bilir, bəlkə də qadınlarımız bu qədər gözəl, bu qədər əsrarəngiz olmasaydılar, fəlakətlər, müharibələr dünyanı çoxdan dağıtmışdı.

Güllər, çiçəklər kimi ətirli olan qadın ürəyi böyük bir dünyadır. Bu dünyada hər şey var. Sevgi, məhəbbət, qayğı, işıq, nur, inam, ümid. Gərək onunla xoş davranasan, onu incitməyəsən, xətrinə dəyməyəsən, onu güldürəsən, sevindirəsən, günəş kimi sönməyə qoymayasan. Sevimli şairimiz Tofiq Bayram "Qadın ürəyi" şeirində sanki kişilərə məsləhət verərək yazırdı:

*Güldürsən, ömürlük səadətindir,*
*Söndürsən, yanmağı bir də çətindir.*
*O, əsl qayğının, məhəbbətindir,*
*Sevgisiz zindandır qadın ürəyi.*

Qadın böyük, məğlubedilməz, bitib-tükənməyən bir qüvvədir. Bu qüvvənin qarşısında bütün pisliklər diz çökür, əyriliklər baş əyir. Qoy qadınlarımız həmişə gözəl görünsünlər. Gözəllikləri ilə dünyamızı xilas etsinlər, onu pisliklərdən, şər qüvvələrdən qorusunlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 8 mart (№52).- S.16.